**Azərbaycan Respublikasının**
**Belçika Krallığındakı Səfirliyi**

+

| | |
|---|---|
| Haradan: | SBRS |
| Haraya: | MİƏİ, MİHİ, MHSİ, MRTİ |
| Surəti: | MNKT, Aİ üzv ölkələrindəki Səfirliklər, SVŞN, NNAT |
| Çıxış nömrəsi: | SBRS/ 635 /15 |
| Tarix: | 16 / 10 /15 |
| Sənəd necə göndərilir: | Elektron poçt |
| Səfirliyin ........................N-li məktubuna istinad | |
| Səhifələrin sayı: | 1+ 9 |
| Əlavə olunur | |
| Məhdudluq qrifi: | Adi |
| Təcililiyi: | Adi |
| Vacibliyi: | Vacib |
| Əvvəlki müraciətlər: | |

XİN-in .................... N-li məktubuna cavab
..............................................tarixinə qədər cavab verilməlidir

Məruzə üçün: Nazirə,
Nazir müavini: M.Məmməd-Quliyevə
Nazir müavini: A.Əzimova
Nazir müavini: X.Xələfova

Məlumat verilməsi üçün: AR iqtisadiyyat və sənaye naziri Ş.Mustafayevə

**Məsələyə dair:** *Cənubi Qafqaz ölkələrinin xarici siyasət və təhlükəsizlik məsələlərinə həsr olunmuş seminara dair*

Səfir Fuad İsgəndərov

İcraçı: Anar Şükürov

Nəzərinizə çatdırırıq ki, 12 oktyabr 2015-ci il tarixində Brüssel şəhərində *"Cənubi Qafqaz konserti: Hər kəs öz musiqisini ifa edir"* başlığı altında seminar keçirilmişdir. Sözügedən seminar qlobal oyunçuların Cənubi Qafqaz ölkələrinin inkişafına və xarici siyasətinə təsirlərinin müzakirəsinə həsr olunmuşdur. Tədbirdə bir sıra Avropa "beyin mərkəzləri"nin siyasi təhlilçiləri ilə yanaşı Avropa Xarici Fəaliyyət Xidmətinin (EEAS) yüksək vəzifəli rəsmisi çıxış etmişdir. Çıxışlarda diqqət çəkən məqamlar aşağıdakılar olmuşdur:

**EEAS-da Rusiya, Şərq Tərəfdaşlığı, Mərkəzi Asiya, regional əməkdaşlıq və ATƏT idarəsinin direktoru Qunnar Viqand:**

- Aİ Şərq qonşuluğunda təhlükəsizlik məsələləri üzrə Rusiya ilə fəal dialoq aparır. Rəsmi Moskva qonşuluqdakı regionlara münasibətdə Rusiyanın "sərt davranış" siyasətinə *(hardcore policy)* keçidini gizlətmir. Rusiya ciddi lakin qeyri-müəyyən tərəfdaşdır.

- Rusiya Cənubi Qafqaz bölgəsinə öz nüfuz dairəsi və ya döyüş meydanı kimi baxır. Bu ölkə öz "sərt davranış" siyasəti ilə Cənubi Qafqaz ölkələrini seçim qarşısında qoyur. Ümumilikdə Rusiyanın təhlükəsizlik sahəsində oynadığı rol əslində regionun qeyri-sabitliyinə xidmət edir.

- Rusiyanın təbliğat çarxı fəal şəkildə işləyir. Rusiya dünyaya çatdırmağa çalışır ki, ölkəyə qarşı tətbiq olunan sanksiyalara baxmayaraq o, yenə də dünya səhnəsindədir. Lakin Rusiya 5%-lik illik iqtisadi geriləmənin gələcəkdə nə ilə nəticələnəcəyini hələlik dərk etmir.

- **Cənubi Qafqaz ölkələrində sabitlik çox önəmlidir. Lakin əgər bəziləri sabitliyin repressiya ilə təmin ediləcəyini düşünürsə, bu yaxın perspektivə hesablanmış siyasətdir və Aİ bununla razılaşmır.**

- Ermənistanın Assossiasiya Sazişini imzalamaqdan "heyrətamiz" şəkildə imtina etməsi bu ölkə ilə yeni ikitərəfli hüquqi sənədin imzalanmasını zəruri etmişdir. **Ermənistan Avrasiya İqtisadi İttifaqına (Avİqİt) üzvlük şəraitində Aİ arasında imzalanacaq yeni Saziş sayəsində Aİ-yə inteqrasiyanın necə həyata keçiriləcəyini nümayiş etdirməlidir. Aİ inanır ki, bu iki inteqrasiya qarşılıqlı əlaqədə ola bilər və Ermənistan bunun üzərində ciddi şəkildə işləyir.**

- Aİ Azərbaycanla münasibətlərində açıq və səmimidir. Lakin ölkədəki insan hüquqları ilə bağlı son vəziyyət bu münasibətləri gərginləşdirmişdir. **Aİ-yə çağırışlar edilir ki, Azərbaycanla münasibətlərin səviyyəsini aşağı salsın. Azərbaycanla iqtisadi-ticarət əməkdaşlığı o qədər də iddialı olmayacaq, çünki bu ölkə Ümumdünya Ticarət Təşkilatının (ÜTT) üzvü deyil.**

- Azərbaycanla münasibətlərdə enerji tərəfdaşlığı Aİ-nin əhəmiyyət verdiyi sahədir. Bu həm Aİ, həm də digər ölkələrin sərmayələrinin cəlb edilməsi baxımından vacibdir. Yeni reallıq ondan ibarətdir ki, enerji sahəsi Azərbaycanla münasibətlərdə mühüm yer alacaqdır.

- **Azərbaycan Aİ ilə Strateji Tərəfdaşlıq Sazişini imzalamaq istəyir. Azərbaycan tərəfi enerji və təhlükəsizlik sahəsində ölkənin strateji regional çəkisini bu sənədin mahiyyəti kontekstində görür. Lakin Aİ gələcək Sazişlə bağlı danışıqları yalnız bu iki amillə məhdudlaşdırmaq istəmir. Demokratiya və insan hüquqları ilə bağlı məsələlər danışıqların əsas xəttini müəyyən etməlidir. Aİ, sözügedən sahədə Azərbaycanda cərəyan edən konkret hadisə və faktlar əsasında iş aparır. Azərbaycan çox çətin dövrdən keçir. ATƏT-in Bakı ofisinin bağlanması, Demokratik Təsisatlar və İnsan hüquqları Ofisinin (ODİHR) parlament seçkilərinə müşahidəçi missiyası göndərməməsi bunun bariz nümunəsidir.**

- Azərbaycanın bir sıra Aİ üzv ölkələri ilə yaxşı iqtisadi münasibətləri vardır. İqtisadi əlaqələr Azərbaycanla münasibətlərə yeni reallıqlar gətirir. Bununla belə, Aİ təkcə bununla kifayətlənmək istəmir və daha dərin əməkdaşlığın tərəfdarıdır.

- Avropa Qonşuluq Siyasətinin yenilənməsində əsas diqqət "fərqləndirmə" siyasətinin geniş tətbiqinə verilmişdir. **Lakin "fərqləndirmə" siyasəti Aİ-nin insan hüquqları ilə bağlı dəyərlərin təşviqindən imtina edəcəyi anlamına gəlməməlidir.** Aİ öz dəyərlərini heç bir tərəfdaş ölkəyə məcburi şəkildə qəbul etdirmir. Aİ sadəcə tərəfdaş ölkələrə onların beynəlxalq öhədliklərini xatırladır.

- **Tərəfdaş ölkələrdən Aİ-nin bu yanaşmasını qəbul etmək istəməyənlərə münasibətdə Aİ öz strategiyasını müvafiq şəkildə uyğunlaşdıracaqdır. Yeni yanaşmada hər hansı cəza və ya təzyiq *(no punishment or coercion)* amili yer almayacaqdır.**

Seminarda çıxış edən Milli və beynəlxalq tədiqatlar institutunun rəhbəri Leyla Əliyeva Q.Viqanda belə bir sual ünvanlamışdır: "Azərbaycan müstəqil xarici siyasət aparmağa səy göstərdiyi halda, Ermənistanın Rusiyanın asılılığında qalması regionda Aİ və digər kənar oyunçular arasında rəqabətin zəifləməsinə xidmət edirmi?".

EEAS rəsmisi cavabında bildirmişdir ki, tərəfdaşlar arasında belə bir təəssürat var ki, demokratikləşmə və dəyərlər ölkənin sabitliyinə xələl gətirəcəkdir. Nəzərə almaq lazımdır ki, bir sıra Aİ üzv ölkələrində vaxtilə avtoritar siyasət hökm sürmüşdür. Lakin həmin ölkələr siyasi transformasiya sayəsində inkişafa nail olmuşdur. Aİ bir ölkənin müəyyən bir bloka digərinin isə başqasına aid olması fikri ilə razılaşmır.

**Beynəlxalq Münaqişə Qrupunun (İnternational Crisis Group) təhlilçisi Nigar Göksel:**

- Türkiyə ilə qərb arasında dialoq özünəməxsus mahiyyət daşımışdır. Qərb Xəzər və Mərkəzi Asiya enerji ehtiyatlarının Türkiyə üzərindən nəqlində bu ölkəyə zəruri dəstək göstərəcəyini vəd etmiş, əvəzində qərb dəyərlərinin şərqə doğru təşviqində Türkiyənin mühüm rol oynamasını istəmişdir. Bu Türkiyədə "yeni-Osmanlı siyasəti" kimi təzahür etməyə başlamışdır.

- Hazırda Türkiyə regional siyasətdə qeyri-müəyyən oyunçu vəziyyətini almışdır. Bunun da əsas səbəbi çox-institutlu idarəçilik sistemindən dikataturaya keçid olmuşdur. Ərdoğan hökuməti iddia edir ki, qərbin Türkiyə ilə bağlı məkrli planları var.

- **Türkiyə ilə Azərbaycan arasında münasibətlər müstəsna əhəmiyyət daşıyır və hər iki ölkənin dövlət başçıları arasında şəxsi münasibətlərin güclənməsinin burada böyük rolu vardır. Bu yaxınlaşma hər iki ölkənin qərbə qarşı müqavimətinin artmasına yardımçı olur. Lakin hazırda demokratik dəyərlər müstəvisində Türkiyənin gerilədiyini nəzərə alaraq, qərbin bu ölkəyə təzyiqləri onu zəiflətməkdədir. Bu zəiflik öz növbəsində Azərbaycana da yan təsirlərini göstərmiş olacaqdır. Azərbaycanın qərbə qarşı müqavimətini azaldacaq və ölkədə qərbin arzuladığı bir sıra islahatların həyata keçirilməsinə zəmin yaradacaqdır.**

- Cənubi Qafqazdakı hadisələrə Türkiyənin təsir imkanlarını azaldan amillərdən biri qərb və Türkiyə arasında əlaqələndirilmənin olmamasıdır. Türkiyənin təklif etdiyi həll mexanizmləri bəzən ATƏT-in Minsk Qrupunun yanaşmasına uyğun gəlmir və nəticədə hər iki tərəfin təqdim etdiyi variant iflasa uğrayır.

- Azərbaycanda düşünürlər ki, ölkənin ərazi bütövlüyünün dəstəklənməsi Ermənistana qarşı sanksiyaların tətbiqi ilə müşayiət olunmalıdır. Əks halda, bu mövqeyin səmimiliyinə şübhə ilə yanaşırlar.

**Avropa Siyasət Mərkəzinin siyasi təhlilçisi Amanda Pol:**

- Qonşularına nəzər saldıqda demək olar ki, Cənubi Qafqaz ölkələrinin müəyyən mənada bəxti gətirməmişdir. Bu gün Cənubi Qafqaz regionunda qlobal oyunçular əməkdaşlıq etməkdən daha çox rəqabət aparırlar.

- Rusiya birmənalı şəkildə "parçala və hökm sür" siyasətini yürüdür. Ermənistan Rusiyanın təsiri altında olmasına baxmayaraq, Gürcüstan və Azərbaycan qərbə meyillidirlər.

- İranla bağlı sanksiyaların ləğv edilməsi regionda yeni oyunçunun meydana çıxmasına şərait yaradacaqdır. Bundan isə, Ermənistan faydanmağa başlayacaqdır. Əslində İran regionda tarixi oyunçu olmuşdur, lakin Rusiya onu həmişə kənarlaşdırmağa nail olmuşdur.

- İranın regional müstəvidə enerji təminatçısı kimi əhəmiyyətinin artması onu Azərbaycanla qarşı-qarşıya qoya bilər. Lakin Azərbaycan bilir ki, onun enerji resursları İranın ehtiyatları ilə müqayisədə çox deyil və ona görə də Azərbaycan İranla əməkdaşlıq yolunu seçəcəkdir.

- **Rusiya tərəfindən Krımın ilhaqı və ölkənin şərq hissəsində qeyri-sabitlik Azərbaycanda Rusiya təhdidini artırmışdır. Azərbaycanda təbii olaraq ehtiyat edirlər ki, bu ölkədə də "narıncı inqilab" yaradıla bilər. Azərbaycandakı insan hüquqları ilə bağlı vəziyyətin pisləşməsi də bununla əlaqəlidir.**

- **Aİ ilə Azərbaycan arasında münasibətlərin pisləşməsi Rusiyanın Azərbaycanda dayaqlarının artmasına xidmət edir. Lakin Azərbaycan Rusiyanın təsirlərindən tamamilə xilas olmaq istəyir və heç bir vəchlə Rusiyaya yaxınlaşmayacaqdır.**

- **Aİ-nin siyasi blok kimi Azərbaycana qarşı mövqeyini anlamaq çətindir. Belə ki, bir tərəfdən Aİ Şurasının Prezidenti Azərbaycana səfəri zamanı Aİ-nin bu ölkə ilə strateji tərəfdaşlıq əlaqələri qurmaqda maraqlı olduğunu bildirir, digər tərəfdən isə cəmi iki ay sonra Avropa Parlamenti tərəfindən Azərbaycanla bağlı qətnamə qəbul olunur. Aİ daxilində məlumat mübadiləsi və əlaqələndirilməsində boşluqlar özünü göstərir.**

- Güman etmək olar ki, Strateji Tərəfdaşlıq Sazişi üzrə danışıqlar uzun sürəcəkdir. Aİ demokratik dəyərlərin təşviqi məsələsini davamlı şəkildə irəli sürəcək, Azərbaycan çətinliklə də olsa bunları qəbul edəcək. Lakin ümid etmək olar ki, tərəflər bir-birilərinə qarşı birtərəfli tənqidlər səsləndirməkdənsə, konstruktiv dialoqa cəlb olunacaqlar.

- Aİ Cənubi Qafqazda münaqişələrin həllində fəal iştirak etməlidir. Azərbaycanın ərazi bütövlüyünün Aİ tərəfindən dəstəklənməməsi bu ölkənin narazılığına səbəb olur.

**Qeyd etmək istərdik ki, A.Polun sonuncu fikrinə EEAS rəsmisi Q.Viqand müdaxilə edərək Aİ-nin artıq Azərbaycanın ərazi bütövlüyü və suverenliliyini dəstəklədiyini və bu mövqeyin Şərq Tərəfdaşlığı ölkələrinin Riqa Zirvə toplantısının bəyannaməsində əks olunduğunu bildirmişdir.**

Çıxış edənlər sırasında L.Əliyeva öz nitqini əsasən Azərbaycanın Aİ ilə dialoqunun tarixçəsi əsasında qurmuşdur. O bildirmişdir ki, vaxtilə Azərbaycan Aİ ilə münasibətlərini "kürü diplomatiyası" vasitəsilə inkişaf etdirəcəyini düşünürdüsə, artıq "enerji diplomatiyası" daha fəal şəkildə özünü göstərir. Aİ ilə Azərbaycan arasında münasibətlərin soyumasına baxmayaraq, ictimaiyyətin əksəriyyəti Aİ-yə inteqrasiyanın tərəfdarıdır. Onun sözlərinə görə, Azərbaycan Rusiyanı təhdid kimi görür. Bu təəssürat o vaxt dəyişə bilər ki, Rusiya regionda təhlükəsizliyin qarantı kimi çıxış etsin.

**Avropa Siyasəti Tədqiqatları Mərkəzinin tədqiqatçısı erməni mənşəli Hrant Kostanyan:**

- Ermənistanın Assosiasiya Sazişi üzrə danışıqlardan gözlənilməz şəkildə imtina etməsinin səbəbi Rusiyanın bu ölkəyə təzyiqlərinin artması ilə əlaqəlidir. Aİ özü regional əməkdaşlıq formatlarını dəstəkləməsinə baxmayaraq, AvİqIt-ə soyuq münasibət göstərmişdir.

- Şərq Tərəfdaşlığı proqramı üzrə arzu olunan uğurun əldə edilməməsində Aİ-nin də payı var. Aİ nəzərə almalı idi ki, bir sıra tərəfdaş ölkələrin Rusiya ilə münasibətləri genişdir. Rusiya buraxılmış bu boşluqdan məharətlə istifadə edib Şərq Tərəfdaşlığı proqramını korlamağa başladı.

- **Avİqİt inteqrasiya bloku kimi özünü tam doğrultduğu təqdirdə Ermənistan Aİ və bu təşkilat arasında uyğunluğun tapılmasına çalışmalıdır. Nəzərə alsaq ki, Avİqİt-ə üzvlük öhdəliklərindən irəli gələrək Aİ ilə Dərin və Hərtərəfli Azad Ticarət Sazişinin (DCFTA) imzalanması qeyri-mümkün olacaqdır. Lakin bu halda, ÜTT prinsipləri Aİ ilə iqtisadi-ticarət münasibətlərində ortaq məxrəc kimi götürülməlidir.**

Sual-cavab hissəsində Azərbaycanın Avİqİt-ə üzv olub-olmayacağı ilə bağlı sual ünvanlanmışdır. L.Əliyeva Azərbaycanın Rusiyanın da olduğu MDB-yə qoşulduğunu, lakin Avİqİt-in iqtisadi və siyasi məqsədlərinin fərqli mahiyyət daşıdığını nəzərə alaraq, Ermənistanın üzv olduğu bu təşkilata Azərbaycanın qoşulmasının mümkün olmadığını bildirmişdir. O, həmçinin əlavə etmişdir ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində tərəflərin razılığa gəlməməsi təbiidir, çünki həll prosesində kənar oyunçuların təsiri çoxdur.

Ermənistanın Avİqİt-ə üzvlüyü nəticəsində Rusiyanın bu ölkə üzərində nüfuzunun artacağını nəzərə alaraq Aİ-yə inteqrasiya sahəsində islahatların necə keçiriləcəyinə dair suala cavabında H.Kostanyan bildirmişdir ki, DCFTA tərəfdaş ölkələrdə siyasi islahatları təşviq etmək üçün əsas təsir vasitəsi rolunu oynayırdı. Lakin Ermənistan artıq DCFTA imzalamayacağına görə tərəflər arasında münasibətlərin hüquqi çərçivəsini formalaşdıracaq yeni saziş bəyanat xarakterli olacaqdır. H.Kostanyan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin kənar oyunçular, o cümlədən Rusiyadan asılı olması fikri ilə razılaşmadığını, onun məhz iki ölkə tərəfindən həll edilməli olduğunu bildirmişdir.

Seminarda edilmiş çıxışlarla bağlı müşahidələrimiz aşağıdakılardan ibarət olmuşdur:

1. EEAS-ın yüksək vəzifəli rəsmisi Q.Viqand Azərbaycan və Aİ arasında münasibətlərdə yaranmış gərginliyin əsas səbəblərini ört-basdır etməyə cəhd etmişdir. Belə ki, onun Azərbaycanla bağlı çıxışında daha çox mənfi və tənqidi məzmunda fikirlər sezilmişdir. Bununla yanaşı, diplomat kimi ikitərəfli münasibətlərdə narahatlıq doğuran məsələlərə ictimaiyyət qarşısında ümumi şəkildə toxunmaqdansa onların təfsilatına varmış və guya bütün bu arqumentləri nəzərə alaraq, Aİ daxilində Azərbaycanla münasibətlərin səviyyəsinin aşağı salınmasına dair çağırışların olduğunu iddia etmişdir. Hesab edirik ki, Azərbaycan-Aİ münasibətlərinin cari durumunun səbəblərinə Aİ rəsmisi tərəfindən bu cür don geyindirmək cəhdləri qəbuledilməzdir. **EEAS və Aİ siyasi dairələrinə xatırlatmaq lazımdır ki, Aİ deyil, məhz Azərbaycan Aİ təsisatlarının ikitərəfli tərəfdaşlıq və əməkdaşlıq ruhuna zidd addımları nəticəsində ikitərəfli siyasi dialoqa fasilə vermiş, Strateji Tərəfdaşlıq Sazişi layihəsi üzrə danışıqları təxirə salmışdır.**

2. EEAS yüksək vəzifəli rəsmisi Q.Viqand və tədqiqatçı H.Konstanyanın çıxışlarında Ermənistanın Avİqİt və Aİ arasında əməkdaşlığı təcəssüm etdirə biləcək model kimi təqdimatı sezilmişdir. Güman etmək olar ki, bu

səokidə səsləndirilən fikirlər beynəlxalq siyasi müstəvidə Aİ ilə Rusiya arasında qarşıdurmanın azaldılmasında Aİ tərəfindən Ermənistana “böyük ümidlər” bəslənildiyi və ona “müstəsna rol verildiyi” təəssüratını yaratmaq niyyətini daşıyır.

3. Digər tərəfdən, artıq bir ildir ki, Azərbaycanla münasibətlərdə arzu etdiyi dinamikanı əldə edə bilməyən Aİ köhnə metoddan istifadə etməyə çalışmışdır. Çıxışında Q.Viqand Ermənistan və Azərbaycanı Assossiasiya Sazişi imzalamamış ölkələr arasında eyni cərgəyə qoyaraq, Ermənistanın AvİqIt-ə üzv olmasına baxmayaraq Aİ ilə daha fəal əməkdaşlıq etdiyini göstərməyə çalışmış, müqayisəli təhlil aparmaqla ölkəmizi rəqabət mühitinə çəkməyə cəhd etmişdir.

4. Tədqiqatçıların Azərbaycanın Aİ ilə münasibətlərinə dair əsas ismarıcı ondan ibarət olmuşdur ki, Aİ-nin ölkəmizlə dialoqunda mürəkkəb məsələlərin qalmasına və bunların həlli üçün uzun müddət tələb olunmasına baxmayaraq, Azərbaycan Aİ ilə münasibətlərə diqqət ayırır.

5. Aİ Azərbaycanla tərəfdaşlıq əlaqələri yarada bilməsə də, Rusiya Azərbaycan üçün heç də yeganə alternativ deyil. Səsləndirilən fikirlərdə belə ismarıclara da rast gəlindi ki, Azərbaycanın qərbə qarşı müqaviməti ölkənin Rusiyaya yaxınlığından deyil, Türkiyə ilə strateji tərəfdaşlığından irəli gəlir. Türkiyədə mərkəzləşdirilmiş güclü idarəetmə sisteminin zəiflədilməsi və Türkiyə rəhbərliyinin nüfuzuna xələl gətirən addımların atılması öz növbəsində Azərbaycanın qərbə qarşı müqavimətini qırmaq üçün Avropadakı bir sıra siyasi qüvvələr tərəfindən əsas məqsəd kimi nəzərdən keçirilməkdədir. Bəzi mütəxəssislərin fikrincə, bu planlar həm də, Türkiyənin Xəzər və Mərkəzi Asiya enerji daşıyıcılarının Avropaya nəqlində mühüm infrastrukturlara nəzarət edən tranzit ölkə kimi Avropa məkanında formalaşmasının əleyhinə çıxış edən siyasi və iqtisadi qüvvələrinin maraqlarına xidmət edir.

Aİ rəsmiləri ilə müxtəlif səviyyəli görüşlər zamanı nəzərə alınması üçün diqqətinizə təqdim edirik.